Azərbaycan müəllimi.- 2025.- 8 fevral, №5.- S.7.



“İlk dəfə səhnəyə 10 yaşında çıxmışam. Bir sıra dövlət tədbirlərində, şəhid və qazi ailələri üçün keçirilən mərasimlərdə ifalarım maraqla qarşılanıb. Həssas insanlar qarşısında çıxış etməyin məsuliyyətinin çox böyük olduğunu mahnılarımı təqdim edərkən səhnədən mənə zillənən kövrək, baxışlardan hiss etmişəm və etməkdəyəm. Bu mənzərə, əslində, məni daha məsuliyyətli olmağa, ifa etdiyim mahnıdakı ruhu təkrar yaşamağa təkid edir. Ümumiyyətlə, səhnədə qazanılan bütün uğurların sirrini fitri istedada sahib olmaqda, səhnə mədəniyyətinə yiyələnməkdə və ifaçılıq məsuliyyətində görürəm...”

# “Ən böyük arzum azad Qarabağımızda “Qarabağ şikəstəsi”ni ifa etməkdir”

*Yusif Sadıqov:*

## “Türkiyəli tamaşaçılar “Bayatı-şiraz” muğamını mənim ifamda çox bəyəndilər”

Bu sözləri Azərbaycan Milli Konservatoriyası tərkibində Respublika İncəsənət Gimnaziyasında təhsil alan gənc istedad Yusif Sadıqov deyir. Onunla təhsil ocağında görüşüb həmsöhbət olduq. Özünə güvəni çox idi. Əslində, bu, mənim çox xoşuma gəldi, çünki hansı sənətin sahibi olursansa ol, əgər özünə, öz istedadına güvənməsən heç bir sahədə özünü təsdiq edə bilməzsən.

Həmsöhbətimin 14 yaşı var. Musiqiyə həvəsi hələ kiçik yaşlarından olub: “8 yaşımdan, əgər belə demək mümkünsə, professional musiqi ilə məşğul olmağa başlamışam. Tanınmış xanəndə Aytən Məhərrəmovanın sinfində bu sənətin incəliklərini öyrənirəm. Sınaq meydanımız isə həmişə irili-xırdalı səhnələr, festivallar, yarışmalar olub. Gecə-gündüz öz üzərimizdə çalışırıq ki, valideynlərimizin və müəllimlərimizin ümidlərini doğruldaq, tamaşaçıların zövqlərini oxşayaq.

Uğurları barədə bizə məlumat verən yeniyetmə istedad bildirdi ki, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş “Gəncliyin səsi” festivalının açılış konsertində səsləndirdiyi muğamlar tamaşaçıları heyran edib. Qürur duyduğu, bu uğurlu çıxışın onu çox ruhlandırdığını və ardınca neçə beynəlxalq və respublika müsabiqələrinin qalibi olduğunu vurğuladı: “Təvazökarlıqdan kənar olsa da, deməliyəm ki, uğurlarım çoxdur. Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən “Könlüm keçir Qarabağdan” respublika müsabiqəsinə qatıldım və bu müsabiqədə III yerə layiq görülərək fəxri fərman aldım. “Milli dəyərlərimiz muğam məktəblilərin gözü ilə” müsabiqəsində isə birincilik qazandım. Daha sonra “Heydər Əliyev İli” çərçivəsində Bülbül adına Orta İxtisas Musiqi Məktəbi, Elm və Təhsil, Mədəniyyət nazirliklərinin təşkilatçılığı ilə keçirilən 4-cü respublika müsabiqəsində xanəndəlik nominasiyası üzrə qalib oldum. Eyni zamanda XIII beynəlxalq uşaq muğam müsabiqəsinin qalibi adını qazandım. “Heydər Əliyev İli” çərçivəsində İdman və Gənclər Nazirliyinin dəstəyi ilə keçirilən müsabiqədə də xanəndəlik nominasiyası üzrə çıxış etdim və Qran-pri mükafatına layiq görüldüm”.

Qeyd edək ki, Yusif Elm və Təhsil Nazirliyinin Heydər Əliyev Sarayında keçirdiyi “Zəfər festivalı” ümumrespublika müsabiqəsində də 1-ci yeri qazanıb.

Xanəndə kimi yetişməyində ustadına minnətdarlığını ifadə edən həmsöhbətim vurğulayıb: “Bütün uğurlarıma görə ustadım Aytən Məhərrəmovaya borcluyam. Mənim peşəkar xanəndə kimi yetişməyimdə onun əvəzsiz rolu və əməyi var. Valideynlərimlə bərabər həmişə mənə mənəvi dəstəkdir, arxa-dayaqdır sevimli müəllimim. Buna görə də yetirmələrinin demək olar ki, hamısı müsabiqə qalibləri və laureatlarıdır. Yeri gəlmişkən, deyim ki, özüm də elə musiqiçi ailəsinin davamçı üzvlərindənəm. Necə deyərlər, canımız, qanımız musiqi ilə yoğrulub. Uğurlarım bununla bitmir. İşğaldan azad olunmuş rayonlarımızda bir sıra dövlət tədbirlərində çıxışlarım olub. Ən böyük arzum isə azad Qarabağımızda “Qarabağ şikəstəsi”ni canlı ifa etməkdir”.

**“Türkiyədə ifa etdiyim muğamlar tamaşaçıları heyran etdi”**

May ayında Türkiyədə “Bir millət, iki dövlət” konsertində gözəl çıxışım olub. Hədsiz qürur hissi ilə milli xalq mahnılarımızı, muğamlarımızı canlı ifa etmişəm. Əsasən “Bayatı-şiraz” muğamı Türkiyə tamaşaçıları tərəfindən rəğbətlə qarşılanıb. Respublika İncəsənət Gimnaziyasının direktoru Aytən Əhmədovaya təşəkkürümü bildirirəm ki, bizim kimi gənclərə hər zaman meydan verib, dəstək olub.

**“Arzum peşəkar xanəndə olmaqdır”**

Ən böyük arzum gələcəkdə təhsilimi Azərbaycan Milli Konservatoriyasında davam etdirərək peşəkar xanəndə, müəllim və hər zaman vətənimi ölkə hüdudlarından kənarda sənətkar kimi təmsil etməkdir. Bu, müqəddəs arzu, böyük xoşbəxtlikdir.

...Sözlərini tamamlayandan sonra yeniyetmə istedad telefonunun yaddaşında saxladığı “Bayatı-şiraz” muğamını onun ifasında dinləməyi xahiş etdi. Həyəcansız dinləyə bilmədim bu möhtəşəm ifanı. Klassik muğam ifaçıları Cabbarın, Xan Şuşinskinin boğazları var idi bu ifada...

**Sifai SƏFƏROVA**